Səh. 2 KİTAB YANDIRMAQDAN DAHA PİS ŞEY...
Səh. 3 "BU DİLSIZ HEYVANLARA GÖRƏ ALLAHDAN QORXUN!"
Səh. 4 YENİ İLDƏN MÜƏLLİMLƏR ÜÇÜN NƏLƏR DƏYİŞİR?
Səh. 5 MÜƏLLİMLƏRİN OXUMALI OLDUĞU 17 KİTAB
Səh. 6 YAZIQ ANA DİLİM
Səh. 6 QRİP VƏ SOYUQDƏYMƏNİ BİR-BİRİNDƏN FƏRQLƏNDİRƏN 6 ƏLAMƏT
Səh. 7 HƏYATA+1-LƏ BAŞLAMAQ
Səh. 8 STADİONDA SİQARET ÇƏKƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR



İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR 2020-Cİ İL №001 (105)


# Yeni YOL


Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## GÜRCÜSTANDA QRİPƏ YOLUXANLARIN SAYI ARTIB



"Yanvar ayının ikinci həftəsində qrip virusuna yoluxma halları həftəlik müqayisədə artıb". Bunu Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib.

Onun sözlərinə görə, hazırda Gürcüstanda 100 min nəfərə 219 yoluxma halı düşür.

A.Qamkrelidze qeyd edib ki, mövsümi qrip virusu ilə bağlı xəstəxanaya yerləşdirilən pasiyentlərin sayında da artım qeydə alınıb.

Mərkəz rəhbəri deyib ki, 97 minə yaxın şəxs dövlət hesabına qrip əleyhinə peyvənd olunub. O, risk qrupuna daxil olan vətəndaşları peyvənd olunmağa çağırıb və ehtiyatda dörd min doza qrip vaksini olduğunu bildirib.

"Ölkədə qrip virusu vaksininin strateji ehtiyatı var. 4 min doza qrip vaksini strateji ehtiyatımızda durur və risk qrupları üçün nəzərdə tutulub. Bu qrupa daxil olanlardan, xüsusən də hamilə qadınlardan xahiş edirəm ki, peyvənd olunsunlar. Qrip virusu ilə bağlı keçən mövsümlə müqayisədə daha sakit vəziyyətdir. Əlbəttə, qışdır və qışda qrip həmişə olur. Keçən mövsümlə müqayisə etsək, indi əhalinin 80%-ində B tipli qrip virusu qeydə alınır və müqayisədə yüngül kliniki halla xarakterizə olunur. Ona görə də, bu il, hələ ki, ötən ilin analoji dövrü ilə müqayisədə daha sakit mövsümdür.

Gürcüstanda qrip mövsümü əsasən dekabrın əvvəlində başlayır və bir qayda olaraq martın sonuna, ya aprelin ortasına qədər davam edir", - deyə A.Qamkrelidze bildirib.

## BAŞ NAZİR: MÜƏLLİMLƏRİN ORTA ƏMƏK HAQQI TƏQRİBƏN 1800 LARİ OLACAQ



Müəllimlərin orta əmək haqqı təqribən 1800 lari olacaq. Bu haqda Gürcüstanın baş naziri Giorgi Qaxaria bildirib.

Baş nazirin qeyd etdiyinə görə, hökumət 2020-ci ildə təhsilə xüsusi diqqət ayırıb və bu, işlə təmin etmə səviyyəsinin artırılması, həmçinin əmək bazarında olan disbalansın aradan qaldırılması üçün əsas olmalıdır.

"Təhsil Nazirliyi tərəfindən təqdim olunan məsələyə uyğun olaraq, peşə təhsili müəllimlərinin saatlıq əmək haqqı əhəmiyyətli dərəcədə artacaq və tam qrafiklə çalışan pedaqoqların orta əmək haqqı təqribən 1800 lari olacaq. Ən vacib hissə orta təhsil komponentidir və artıq 2020-ci ildən biz təhsilə xüsusi diqqət ayıracağıq ki, bu, işlə təmin etmənin, eyni zamanda əmək bazarında olan disbalansın aradan qaldırılması üçün əsas olmalıdır", - deyə G.Qaxaria bildirib.

Mənbə: bm.ge

## DAVİD ZALKALİANİ: "GÜRCÜSTANDA ABŞ HƏRBİ BAZALARININ YERLƏŞDİRİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMAYACAQ"



"Gürcüstan ərazisində ABŞ hərbi bazalarının yerləşdirilməsi məsələsi müzakirə olunmayacaq". Bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Gürcüstanda ABŞ hərbi bazalarının yerləşdirilməsi imkanları barədə məlumatlar yayılmaqdadır: "Bunlar yalnız fərziyyələrdir və bu məsələ nəzərdən keçirilməyəcək".



# KİTAB YANDIRMAQDAN DAHA PİS ŞEY...

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

***Kitabları yandırmaqdan daha pis şey onları oxumamaqdır (Rey Bredberi, Amerika yazıçısı)***

Bu il mütaliəni Kamuranın (Kamran Kiryakov) “Bir dişlək alma” romanı ilə başladım. Əslində bir oxucu kimi bu yazıda romanın bədii, estetik dəyərlərindən, bəyənib-bəyənmədiyim yerlərindən yazmalı idim, amma, təəssüf ki, bu mövzunu gələcək üçün saxlamalı olacağam, çünki 2017-ci ildə “Universal” nəşriyyatında 300 tirajla işıq üzü görən romanın varlığından çoxumuzun xəbəri belə yoxdur, baxmayaraq ki, kitabın təqdimat mərasimi də keçirildi, bu yaxınlarda gürcü dilinə tərcümə olunaraq da təqdim edildi.

Əvvəla, diqqətinizi kitabın tirajında cəmləməyinizi istərdim. Axı bizim kitab oxuyanlarımızın sayı elə 300 nəfərdirmi? 300 nəfər kitab oxuyanımız varsa, bəs 3 min nəfər tələbəmiz nəylə məşğuldur? 300 nəfər kitab oxuyanımız varsa, bəs 3 mindən çox müəllimimiz nə oxuyur? 300 nəfərdən artıq kitab oxuyanımız yoxsa... nə yazıq bizə! Kitabın sayının 300 tirajla nəşr edilməsində müəllifin heç bir günahı yoxdur, günah mövcud olmayan oxucudadır. Axı, “kitabı müəllif, onun aqibətini isə cəmiyyət yaradır” (Viktor Hüqo). Bir də bu cəmiyyət kitab oxumayan ola, gör indi kitabın aqibətini nə gözləyir.

Kitabın aqibətini o gözləyir ki, müəllif qələminin məhsulunu az sayda nəşr etdirərək ya dosta-tanışa satır, ya da qapı-qapı, idarə-idarə, təşkilat-təşkilat gəzərək ona-buna PAYlayır. Belə olduğu halda, bizdə, kitabın aqibətini yaradan cəmiyyət, kitabın özünü də, müəllifini də yaradır. Nəticədə isə bostanı-bağı, aranı-dağı tərənnüm edən şeir kitablarından başqa kitab nəşr edilmir (halbuki son zamanlar şeir kitabları da tək-tük nəşr edilir). Və kimsə ayda-ildə bir dəfə yaşıl ağacın altında yuxuya getmiş şeytanın qıçını sındırıb roman ortaya qoyanda, hər şeyin pulsuzuna öyrəşmiş “oxucular” Çənlibelə çəkilirlər.

Əlbəttə, kitaba pul verməyi həyatda ən mənasız pul xərcləmək hesab edən cəmiyyətdə kitabların tirajı az olacaq. Borçalı Fransa, biz isə fransızlar deyilik ki, ildə yüzlərlə roman nəşr edilə və satıla. Bizim kimi cəmiyyətlərdə şairin, yazıçının, rəssamın, bəstəkarın gərək taxta-şalban, qapı-pəncərə sexi ola ki, acından ölməyə. Kitabının satılması müəllif üçün böyük dəstəkdir – həm maddi, həm mənəvi. Romanların, kitabların, tirajların çox olması üçün kitaba pul verməyi vərdiş etməliyik, oxumalıyıq, oxutdurmalıyıq. Axı kitab çap etməyən, kitab oxumayan, kitab yandıran cəmiyyətlərin aqibətindən xəbərimiz var. “Bir mədəniyyəti yox etmək üçün kitabları yandırmağa gərək yoxdur, oxumağın qarşısını alın, yetər” deyib Rey Bredberi.

Yaşadığımız yerin Fransa olmasına çox var, demək istədiyim odur ki, əgər ayda-ildə bizim də bir romanımız çıxırsa, hansı janrda olmasının, zəif ya güclü olmasının fərqi yoxdur, bu, bir hadisədir, bayramdır və bu kitab bayramını hamılıqla qeyd etməliyik – kitaba pul verməklə, oxumaqla, bir almadan hamının bir dişlək alması ilə deyil, hərəyə “Bir dişlək alma” əldə etməklə...

# HÖKUMƏT ANAKLİA DƏRİN DƏNİZ LİMANININ TİKİNTİSİ ÜÇÜN YENİ İNVESTOR AXTARIR

Gürcüstanın baş nazirinin müavini, regional inkişaf və infrastruktur naziri Maia Tskitişvilinin bildirdiyinə əsasən, Gürcüstan hökuməti Anaklia dərin dəniz limanının tikintisi üçün yeni investor axtarır.

“Anaklia limanı ölkənin iqtisadi təhlükəsizliyi və ölkənin potensialının tam reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Liman layihəsi investorlara deyil, dövlətə məxsusdur. Gürcüstan dövləti bu layihənin həyata keçirilməsi təşəbbüsünü hələ 2014-cü ildə irəli sürüb. Liman 2020-ci ilin sonunda istifadəyə verilməli idi, lakin sazişdə qeyd olunan müddət başa çatandan sonra gözlənilən nəticə əldə olunmadı. Bu, konkret investorla müqavilənin dayandırılmasının səbəbi olub”, - deyə M.Tskitişvili bildirib.

O qeyd edib ki, Gürcüstanda dərin dəniz limanına ehtiyac olduğundan hökumət layihənin tez bir zamanda həyata keçirilməsi üçün yeni tərəfdaş axtarmağa başlayacaq.




Gürcüstanın parlament çoxluğunun üzvü Revaz Arveladzenin bildirdiyinə əsasən isə, Çinin ikinci ən böyük tikinti şirkəti olan “China Railway International Group” Anaklia limanının yeni investoru ola bilər.

# “QAZLA İŞLƏYƏN AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞDAN KEÇMƏSİ 250 LARİYƏ BAŞA GƏLƏCƏK”



“Maye qazla işləyən avtomobillərin texniki baxışdan keçməsində qaz balonunun və sistemin yoxlanılması nəzərdə tutulur ki, bu da uzun prosedurdur və 250 lariyə başa gəlir”. Bu haqda Gürcüstanın Avtomobillərin Müfəttişliyi Mərkəzlərinin prezidenti Davit Mesxişvili “Palitra” radiosuna bildirib.

Onun sözlərinə görə, qiymətin daha da artmaması üçün texniki baxışdan keçmək üçün müəyyən edilmiş məbləğə aşağı və yuxarı hədd qoyulmalıdır. D.Mesxişvili bildirib ki, sürücülər bu proses üçün hazır olmadıqlarına görə çıxış yolu qaz balonlu qurğu sisteminin yoxlanılmasının təxirə salınması olacaq.

“Bugünkü reallıqdan dolayı dövlət avtomobil sahiblərinə texniki nəzarət mərkəzləri təklif edə bilmədi. Coğrafi baxımdan qeyd edilən xidmət əlçatan deyil. Ona görə də, ən məntiqli çıxış yolu qaz balonlu qurğu sisteminin yoxlanılmasının təxirə salınması olacaq, çünki sürücülər bu proses üçün hazır deyillər. Onların bu haqda yetərli məlumatları yoxdur, proses tam hazır deyil, elektron proqram da yoxdur, köhnə modeldir və bununla sənədləri saxtalaşdırmaq mümkündür. Bu, prosesi daha da ağırlaşdırır. Eləcə də məlum oldu ki, maye qaz balonlarını və sistemi yoxlamalı olan mərkəzlərin sayı yetərli deyil və fəaliyyət göstərən yalnız iki mərkəz var. Məsələn, sürücü Batumidədirsə avtomobilini texniki baxışdan keçirmək üçün Kutaisiyə getməlidir.

Texniki baxışdan keçmək üçün uzun müddətli prosedur və məbləğ lazımdır. Məndə olan məlumata görə, bunun üçün 250 lari lazım olur. Bilmirəm bu məbləği kim təyin edib. Adi nəzarət halında 60 laridirsə və dövlət buna kiminsə məbləği süni olaraq artırmaması üçün müdaxilə etdi. Bu halda, ümumiyyətlə, müvafiq strukturların reaksiyası yoxdur. Ona görə də, ya aşağı, ya yuxarı hədd müəyyən edilməlidir, çünki sən sürücünü nəyisə mütləq etməyə məcbur etdikdə qiymətin artması riskini də nəzərə almalısan”, - deyə Mesxişvili bildirib.

Qeyd edək ki, 2020-ci ilin 1 yanvarından avtomobillərdə maye qaz balonlarının yoxlanılması məcburi oldu.

# 7 YAŞA QƏDƏR UŞAQLARI QANDA QURĞUŞUN TƏRKİBİNİN YOXLANILMASI ÜÇÜN PUSLUZ MÜAYİNƏ EDƏCƏKLƏR

Qanda qurğuşun tərkibinin araşdırılması üzrə dövlət proqramı genişləndirilir. Dəyişikliklərə əsasən, proqrama qanında yüksək qurğuşun tərkibi simptomları olan 7 yaşa qədər bütün uşaqlar qoşulacaq. Səhiyyə Nazirliyinin məlumatına əsasən, hiperaktivlik, diqqət çatışmamazlığı, davranış pozuntusu bu cür simptomlardır.

Ölkədə qanda qurğuşun tərkibini öyrənmək üçün artıq laboratoriya da var. Medikamentlərlə müalicə isə pulsuzdur.

Səhiyyə siyasətinin idarəsi rəhbəri Eka Adamia bildirib ki, dəyişiklik 2020-ci ilin 1 yanvarından qüvvəyə minib.

“Ötən il “miks” araşdırmasına əsasən, uşaqların qanında qurğuşun tərkibinin bio monitorinqi komponentinə başladıq. Proqram əsasən bu araşdırma nəticəsində aşkarlanan uşaqları əhatə edib. 2020-ci ildə bu komponent genişləndirilir və artıq 7 yaşa qədər olan bütün uşaqların ailə həkimi və ya pediatra müraciəti əsasında imkanı olacaq ki, qurğuşunla bağlı araşdırmaya qoşulsun. Eləcə də qanda yüksək qurğuşun tərkibi müəyyən olunduğu halda uşağın ailə üzvləri də müayinə olunacaq. Bu komponent 2020-ci ilin 1 yanvarından qüvvəyə minib” – deyə Eka Adamia bildirib.

O deyib ki, bunun üçün ailə həkimləri və pediatrlar hazırlanıblar və prosesə başlamaq üçün hazırdırlar.

## ALMANİYA GÜRCÜSTANA HƏRBİ MAŞINLAR VERİB



Gürcüstan Müdafiə Nazirliyinin məlumatına əsasən, Almaniya hökuməti Gürcüstana yardım məqsədilə 12 ədəd hərbi avtomobil verib. Nəqliyyat vasitələri Gürcüstan Silahlı Qüvvələrinə təqdim olunub.

Təqdimat mərasimdə Gürcüstanın müdafiə naziri İrakli Qaribaşvili, Almaniyanın Gürcüstandakı səfiri Hubert Knirş və digər rəsmi şəxslər iştirak ediblər.

İ.Qaribaşvili göstərilən yardıma görə Almaniya hökumətinə təşəkkürünü bildirib. O, iki ölkə arasında əlaqələrdən danışıb, bu yardımın münasibətlərin daha da möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb. Müdafiə naziri bildirib ki, Almaniyanın bu dəstəyi Gürcüstan Silahlı Qüvvələrinin logistik imkanlarının gücləndirilməsi üçün nəzərdə tutulur.

## AUDİT XİDMƏTİ: 560 MİLYON LARİDƏN ÇOX DƏYƏRİ OLAN HEPATİT C MEDİKAMENTLƏRİNİN İSTİFADƏ MÜDDƏTİ ÖTÜB



Dövlət Audit Xidmətinin məlumatına əsasən, Hepatit C proqramı çərçivəsində Gürcüstanın təmənnasız əldə etdiyi 560 645 083 lari dəyərində medikamentlərin istifadə müddəti ötüb. Bu haqda Səhiyyə Nazirliyinin Maliyyə Audit Xidməti bildirib.

Sənəddə qeyd olunan mövzu ilə bağlı Sosial Xidmət Agentliyi açıqlama verib. Medikamentlərin müddətinin ötməsinə əsas səbəb olaraq 2017-ci ilin iyulundan benefisiarların müraciətlərinin ciddi şəkildə azalmasını qeyd edirlər.

"Proqramın qüvvəyə minməsinin ilkin mərhələsində (2015-ci il) əsas müalicə preparatı "Sofosbuvir" ("Sovaldi") idi. Müalicə rejiminə əsasən preparat başqa medikamentlərlə ("İnterferon" və "Ribavirin") birgə təyin olunur. 2016-cı ilin fevralından qeyd olunan preparat yeni nəsil medikamentlərlə - "Harvoni" ilə əvəz olunub. Buna əsasən müalicə rejimi də dəyişib və ilkin mərhələdə istifadə olunan dərmanlardan istifadə ("Sofosbuvir", "İnterferon" və "Ribavirin") ciddi şəkildə azalıb"- hesabatda qeyd olunub.

Sənəddə həmçinin qeyd olunub ki, 2018-ci ildə Hepatit C üçün büdcədən 15,4 milyon lari ayrılıb, ancaq bundan 4 741 000 lari Hepatit C üçün istifadə olunub, qalan məbləğ isə başqa proqramlar üçün bölünüb.

"Nazirliyin verdiyi açıqlamaya görə, dərmanların aşağı səviyyədə istifadə göstəricisi xəstələrin sayının azalması ilə bağlıdır. Qeyd edilməlidir ki, bu proqram son illərdə daim aşağı göstərici ilə xarakterizə olunur ki, bu da büdcənin planlaşdırılması mərhələsində nəzərə alınmayıb" - Audit Xidmətinin sənədində qeyd olunub.

## ÖTƏN İL GÜRCÜSTANDAN 2,4 TON QIZIL İXRAC EDİLİB

Statistika Xidmətinin verdiyi məlumata əsasən, 2019-cu ilin yanvar-noyabr aylarında Gürcüstandan 2,4 ton işlənməmiş və yarımişlənmiş qızıl ixrac edilib.

Hesabat dövründə Gürcüstan qızıl ixracından 67 milyon dollar gəlir əldə edib.

Gürcüstandan qızıl ixracı əsasən üç ölkəyə həyata keçirilir. Əsas ixrac bazarı olan İsveçrəyə 59,5 milyon dollarlıq qızıl ixrac edilib. İkinci yerdə 6,1 milyon dollarla Birləşmiş Ərəb Əmirlikləri, üçüncü yerdə isə 1,5 milyon dollarla Türkiyə gəlir.



**Gürcüstandan işlənməmiş və yarımişlənmiş qızılı ixrac edən şirkətlər bunlardır:**

**1. "Riko-Kredit" MMC.**

**2. "Mikro Maliyyə təşkilatı Riko Ekspress" MMC.**

**3. "RMG Gold" MMC.**

**4. "Avaza" MM.**

**5. "Sasdzori" MMC.**

*Mənbə: bm.ge*

## "BU DİLSIZ HEYVANLARA GÖRƏ ALLAHDAN QORXUN!"

Hacı BƏKİROĞLU
hacibakir@mail.ru



Yaxşısıyla, pisiylə, sevinciylə, kədəriylə bir ili arxada buraxıb yeni bir ilə qədəm basdıq. Arxada qoyub keçdiyimiz ili atəşfəşanlıqla, hay-küylü əyləncələrlə yola saldığımız zaman görəsən bu ilin hesabatını etdikdi? Yeni qədəm basdığımız il bir çox hadisələrlə giriş etsə də yaxşı və sevincli il olacağını umuram.

Nə isə, mənim ələ almaq istədiyim mövzu tamamən başqa mövzudur. Başqa mövzu deyərkən qədəm basdığımız ildə dünyanın gündəmində olan Avstraliyadakı meşə yanğınları və heyvan qətliamıdır.

Kainatda hər şey bir tarazlıq ilə yaradılmışdır. Kainatdakı bu tarazlığı, Allahın xəlq etmiş olduğu hər canlıda görə bilərsiniz. Çünki yer üzündəki bütün canlılar Allahın varlığının bir xəbərçisidir.

Bu səbəbdən Allahın səssiz qulları olaraq ifadə edilən heyvanlar da Allahın yaratdığı hər şey qədər qiymətlidir. Onlara zərər verib incitmək heç bir insanın haqqı deyildir. Əksinə, onlara mərhəmət etmək bizlərə buyurulmuşdur. Təbiətdəki ekoloji tarazlıq üçün də heyvanların payı böyükdür.

Avstraliyadakı meşə yanğını sırasında minlərlə heyvan ölümündə əndişə edərək dünyaya həyəcan təbili çalan Avstraliya hökuməti bu yanğından qurtardıqdan sonra yenə ədalətsizliyə əl ataraq yüzlərlə dəvəni və digər heyvanları qətl etdi. Buna səbəb olaraq isə, inandırıcı olmasa belə, dəvələrin çox su içdiklərini və su problemi yaratdıqlarını göstərildi. Halbuki Allah yaratdığı heç bir canlını ruzisiz qoymur.

Hər fürsətdə terrorizmlə, vəhşiliklə suçlamağa çalışdıqları İslam dini isə hər fürsətdə təbiətə, bitkilərə, canlılara zərər vurulmamasını təlqin edir.

İndi isə sizə İslam dininin heyvanlara verdiyi dəyəri və eləcə də insanlığın verməsi lazım olan dəyəri bir neçə misalla təqdim edək.

Həzrət Peyğəmbər müharibə üçün yola saldığı ordulara yaşlılara, uşaqlara, müharibədə iştirak etməyənlərə toxunulmamasını əmr edərkən bununla yanaşı bitkilərə və heyvanlara belə zərər verilməməsini özəlliklə tapşırdığı bir çox yerdə nəql edilmişdir. Onun üçün də İslam dininin bir nəzakət dini olduğu vurğulanmaqdadır.

Hətta həzrət Peyğəmbər öz zamanında dəvə saxlayanların dırnaqlarını uzatmamalarını və buna hər gün diqqət etmələrini xüsusilə vurğulamışdır. Bunun səbəbi isə dəvə sahiblərinin dəvələri sağarkən dırnaqları ilə dəvələri incitməmələridir. İslam dini heyvanlara belə bu qədər nəzakət göstərərkən terrora, insan qətlinə necə yol verə bilər? Ancaq gəl gör ki, İslam dinini suçlayanların özləri bu gün su içir deyə yüzlərlə dəvə qətl edir.

Balalarının arxasıyca çırpınan quşu görüncə, "Balalarını götürərək bu heyvanın canını kim incitdi?" deyə soruşan bir Peyğəmbərimiz var bizim... Ənam surəsinin 36-cı ayəsində Allah, "Yer üzündə yeriyən bütün heyvanlar və qanadlarıyla uçan bütün quşlar da ancaq sizin kimi bir ümmətdir" buyurur. Bu ayə bizə heyvanların haqlarını açıqca xatırlatması baxımından olduqca əhəmiyyətlidir…

Heyvana qarşı mərhəmətsizlik sayılan hərəkətlərin yalnız heyvanı öldürməklə məhdudlaşdığını düşünmək o qədər də çətin deyil. İşgəncə etmək, gücünün çatdığından artıq işlətmək də eyni şəkildə qiymətləndirilir. İbn Huzeymənin Səhl bin əl-Hanzaliyyədən rəvayət etdiyinə görə, Peyğəmbərimiz çox zəif olan bir dəvəni görüncə kədərlənmiş, sahibinə "Bu dilsiz heyvanlara görə Allahdan qorxun!" buyurmuşdur. Qoyun və keçilərin bütün südünün sağılmamasını istəyərək, quzulara da buraxılmasını söyləmiş, heyvanlar arasında təşkil edilən döyüş və güləşləri də qadağan etmişdir.

Heyvanlar haqqında bu qədər həssas bir yanaşmanın olması Səhabələrin diqqətini çəkmiş və "Ey Allahın elçisi, bizə heyvanlara etdiyimiz yaxşılığa görə də savab varmı" deyə soruşmuşdular. Peyğəmbərimiz, "Bəli, canlı olan hər varlığa edilən yaxşılığa savab vardır" cavabıyla bütün müsəlmanları, heyvanlara yaxşılıq etməyə və haqlarına riayət etməyə dəvət etmişdir.

# YENİ İLDƏN MÜƏLLİMLƏR ÜÇÜN NƏLƏR DƏYİŞİR?



2020-ci ildə təcrübəçi müəllimlər məktəbi tərk etməli idi. Bunu təhsillə bağlı elan edilmiş islahat tələb edirdi. Ancaq 2019-cu ilin sonunda müəyyən edildi ki, təcrübəçi müəllimlər adi rejimdə fəaliyyətlərinə davam edəcəklər. Belə ki, yanvar ayından geniş miqyasda yeni kadrların qəbul edilməsi üçün elan olunacaq vakansiyalar da olmayacaq.

Yeni ildən müəllimlər üçün nə dəyişir və hansı layihələr başlayır – "etaloni.ge" saytı 2019-cu ilin yekunlarını və 2020-ci ilin yeniliklərini təqdim edir.

2019-cu il müəllimlər üçün olduqca yüklü il oldu: status dəyişmək, bir pillə irəli getmək, təcrübəçi müəllimlərə verilmiş iki şans və baş müəllim statusu qazanmaq üçün iki dəfə həyəcan, kreditlər toplamaq, kənar müşahidələrlə dərs keçmək və s.

Ancaq ilin sonunda müəyyən olduğu kimi təcrübəçi müəllimlər üçün bu ikinci imkan heç də sonuncu deyilmiş və 2019-cu ildə status qazana bilməyən müəllimlər yayda yenə imtahan verə biləcəklər. Ona qədər isə məktəbdə qalacaqlar, əməkləri boşa keçməyəcək və toplanan kreditləri ləğv olunmayacaq.

Baş və aparıcı müəllimləri isə gələn il statusu qaldırmağın hansı formada olacağı maraqlandırır. Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz müəllimlər üçün yeni tənzimləmə qaydası üzərində fəal çalışır, məhz burada pedaqoqların yeni qiymətləndirməsi sistemi, həmçinin statusun qaldırılması ilə bağlı dəyişikliklər qeyd olunacaq. Hazırda məlum olduğu kimi, müəllimlər yeni pilləyə qalxmaq üçün kompleks şəkildə qiymətləndiriləcəklər. Mərkəzin direktoru Berika Şukakidzenin sözlərinə görə, statusu dəyişmək üçün imtahan mütləq vacib olacaq, ancaq yetərli olmayacaq. Müəllim kompleksli şəkildə qiymətləndiriləcək və bundan sonra şans veriləcək ki, statusunu qaldırsın. B.Şukakidzenin izahatına əsasən, pedaqoq planı necə hazırladığına, dərsi necə keçdiyinə əsasən qiymətləndirilməlidir. Müəllimin peşəkarlığı qiymətləndirilməlidir və bundan sonra statusu dəyişməlidir.

2020-ci ildə müəllimlər üçün yeni tip imtahan keçirilməli idi və bu, pedaqoqlara bir pilləni aşaraq statuslarını qaldırmaq və mentor olmaq imkanı verəcəkdi. Ancaq Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi bildirir ki, 2020-ci ilin yayında belə imtahan olmayacaq.

Statuslardan əlavə, dəyişikliklər əmək haqqında da olacaq. Artmış əmək haqqını müəllimlər yeni tədris ilindən alacaqlar. Müəllimlərin əmək haqqının artırılması elanını yayda sabiq təhsil naziri verib. Pedaqoqların əmək haqqı periodik olaraq 2022-ci ilə qədər artacaq və onların orta maaşı 1800 lari olacaq.

2020-ci ildə məktəb direktorları və administrasiya əməkdaşlarının da əmək haqqı artacaq. Qeyd etmək lazımdır ki, kreditlərin toplanması sistemi də ləğv olunacaq. Gələn ildən özünüqiymətləndirmə anketi də ləğv ediləcək. Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz kənar müşahidələri və kredit toplama sistemini vacib hesab etmir.

Yayda Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi pensiya yaşında olan təcrübəçi müəllimlərə pul mükafatının verilməsi qaydasını təsdiq etdi və buna əsasən, peşəsini tərk etmək istəyən pensiya yaşlı müəllimlər iki illik əmək haqqını əvvəlcədən aldılar və daimi sığorta əldə etdilər.

2019-cu ilin 31 dekabrına qədər pensiya yaşlı pedaqoqlara şans verildi ki, pul mükafatını almaq üçün müraciət etsinlər. İndiki mərhələdə 2000-ə yaxın pedaqoq dövlətdən pul mükafatını almaq istəyini bildirib və yolu gənc müəllimlərə veriblər. Hələ ki, gələcəkdə pensiya yaşlı müəllimlərə belə şansın yenidən veriləcəyi məlum deyil.

Ötən ilin payızında 6100 pedaqoqun peşəsini tərk etməsi sistemə 2400 yeni kadrın – müəllimlərin gəlməsinə səbəb olması və qalan saatların isə məktəbin digər müəllimlərinə bölünməsi də vacib hal idi.

Bir illik uğurlu çalışmadan sonra "Yeni məktəb modeli" yenidən fəaliyyətə davam edir. Qeyd olunan layihə məktəblərdə yeni standart və yanaşmalar yaradacaq.

Ötən il "Gürcüstan üçün öyrət" proqramı uğurla həyata keçirildi. Qeyd olunan proqramla 19 pedaqoq hazırlandı və dağlıq regionların kiçik kontingentli məktəblərində işlə təmin olundu. Dağlıq regionlarda çalışmaq istəyənlərə belə şans 2020-ci ildə də veriləcək.

2019-cu ilin yeniliklərindən biri "Milli Müəllim Məktəbi" proqramıdır ki, 1900 dinləyici proqrama qəbul olundu. Qeyd olunan proqram da kiçik kontingentli məktəblər üçün nəzərdə tutulub. Proqramın məqsədi region məktəblərində müəllim çatışmamazlığının aradan qaldırılmasıdır. Müəllimlər Evinin təşəbbüsü ilə qeyd olunan proqrama qəbul gələn il də elan olunacaq.

Artıq elan edilib ki, 2020-ci ildə yeni "Direktorlar Məktəbi" proqramı qüvvəyə minəcək. Proqramda bir neçə ay ərzində təhsil almaq mümkün olacaq. Müəllimlər Evi direktorlarla bağlı tam yeni standartlar üzərində çalışır və bu standartlar başqa ölkələrdən götürülmüş olmayacaq, Gürcüstan məktəblərinin ehtiyaclarına uyğun olacaq.

Həmçinin ötən il 2019-2020-ci tədris ilində dövlət müəllimlərin hazırlanması üçün tədris proqramına qəbul olunan şəxslərin maliyyələşdirilməsi üçün 1,845,000 lari ayırıb ki, bunun vasitəsilə fənn kompetensiyasını təsdiqləmiş, müəllim olmaq istəyənlər proqramda pulsuz təhsil alacaqlar. 60 kreditlik proqrama qəbul olmaq istəyənlər 2020-ci ilin sentyabrından da qəbul ola bilərlər. Ötən il müəllimlərin hazırlanması proqramının siyahısında yeni fəaliyyətə başlayan müəllimlər üçün qəbul yox idi, 2020-ci ildə isə yeni fəaliyyətə başlayan müəllimlər də bir neçə universitetdə müsabiqədə iştirak edə biləcəklər.

Yekunda isə qeyd etmək lazımdır ki, 2020-ci ildə müəllimləri çox sayda yeniliklər gözləyir. Qeyd edilməlidir ki, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi pedaqoqların peşə inkişafı üzərində fəal çalışır, irəli getməklə yanaşı maaşın artırılması və dağlıq region məktəblərində müəllim çatışmamazlığının aradan qaldırılmasının qayğısına qalır. Ancaq fənn kompetensiyasını uğurla təsdiqləmiş, məktəblərdə çalışmaq şansının istəyi olan bütün gənclərə verilməsi təşəbbüsü hələ də arzu olaraq qalır.

# "AXTARAN" PROQRAMI İLƏ MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏRƏ BİR NEÇƏ MƏSLƏHƏT

Təcrübəçi müəllimlərə tədris ilinin sonuna qədər məktəbdə qalmaq imkanı verildi. Ancaq müəllimlər üçün xoş olan bu xəbər "axtaran"ların məktəbdə işləmələri şansını azaltdı. Fənn imtahanını uğurla verənlər isə məktəblərdə işlə təmin olunmaq tələb edirlər.

Doğrudur, yanvardan müəllimlik üçün vakansiya ötən ilin sentyabrında olduğu kimi geniş miqyasda elan olunmayıb. Ancaq məktəblər onsuz da yeni kadrlar axtarırlar. Periodik olaraq "teacherjobs.ge" veb-səhifəsində vakansiyaların siyahısı yenilənir.

**"Axtaran"lar necə hərəkət etməlidirlər ki, məktəbdə işlə təmin olunsunlar, onlardan nə tələb olunur və statuslarını necə qaldırmalıdırlar?**

"Etaloni.ge" saytının fənn imtahanını uğurla vermiş "axtaran"lara və müəllim olmaq istəyənlərə bir neçə məsləhəti:

- İlk növbədə "teacherjobs.ge" veb-səhifəsində qeydiyyatdan keçin. Qeyd olunan veb-səhifədə özünüz haqda məlumatları doldurmalısınız. Təhsili təsdiq edən sənədləri yükləməlisiniz, eləcə də iş təcrübəsinə aid olan qrafaları doldurmalı və verdiyiniz imtahanı təsdiqləyən arayışı yükləməlisiniz. Motivasiya məktubunu yazmağı da unutmayın, çünki işlə təmin edən yeni əməkdaş qəbul edən zaman onun motivasiyası və bacarıqları ilə maraqlanır.
- Veb-səhifədə qeydiyyatdan keçdikdən sonra vakansiyaları izləyə və istədiyiniz məktəbdə nə zaman vakansiya elan ediləcəyini öyrənə bilərsiniz.
- Əgər məktəbdə işləmək təcrübəniz yoxdursa, az müsabiqə olan məktəbləri seçin, məsələn, kiçik kontingentli, özəl və ya rayon məktəbləri. Müəllimlər Evinin nümayəndələri çox hallarda qeyd edirlər ki, vakansiyaların elan edilməsi ilə bağlı ən böyük müsabiqə Tbilisinin mərkəzindəki məktəblərdə olur. Regionlar və ya başqa şəhər məktəbləri isə diqqətdən kənar qalır və orada müəllim çatışmamazlığı olur.

Əgər diplomunuz sizə müəllimlik kvalifikasiyası verirsə, yaxud müəllimlərin 60 kreditlik hazırlıq proqramını keçibsinizsə, məktəbdə işlə təmin olunduqdan sonra baş müəllim statusu qazanacaqsınız. Əks halda isə müəllimliklə yanaşı status qazanmaq üçün "axtaran" proqramına qoşulmalı olacaqsınız.



# QISAMÜDDƏTLİ PEŞƏ HAZIRLIĞI PROQRAMLARINA QƏBUL BAŞLAYIB




Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, peşə təhsili almaq istəyənlər üçün qısamüddətli peşə hazırlığı proqramlarına qəbul davam edir.

Qeydiyyatdan keçmək üçün **"vet.emis.ge"** veb-səhifəsinə daxil olmaq və proqram seçmək lazımdır.

"İstəyi olanlara dövlət imkan yaradır ki, qısamüddətli peşə hazırlığı proqramında təhsil alsın. Qısamüddətli hazırlıq proqramları dövlət tərəfindən maliyyələşdirilir. Proqramın uğurla başa vurulmasından sonra dövlət tərəfindən sertifikat veriləcək. Qısamüddətli hazırlıq proqramları yeni işlə təmin olunmaq imkanı yaradır" - nazirliyin yayımladığı məlumatda qeyd olunur.

# MARNEULİDƏ MƏKTƏBİN YERİNDƏ STADİON TİKİLİR



Marneuli rayonunun Sabirkənd kəndində yerləşən 2 saylı 9 illik ictimai məktəbin yerində idman meydançasının tikintisi yerli sakinlər arasında böyük narazılıq yaradıb.

Kənd sakinləri bildiriblər ki, qəzalı və yararsız vəziyyətdə olan təhsil müəssisəsinin sökülərək yerində yeni məktəb binasının inşa olunacağı gözlənilirdi. Azərbaycandilli məktəbin yerində idman meydançasının salınması isə yerli sakinlər üçün gözlənilməz olub.

Marneuli Təhsil Resurs Mərkəzinin rəhbəri Kənan Ömərov məsələ ilə bağlı açıqlamasında Sabirkənd 2 saylı məktəbin 10 ildir fəaliyyət göstərmədiyini deyib.

"Həmin məktəb qəzalı vəziyyətdə olduğundan 2010-cu ildə Gürcüstanın Təhsil və Elm Nazirliyinin müvafiq qərarı ilə Sabirkənd 1 saylı məktəbə birləşdirilib", - deyə K.Ömərov bildirib.

Onun sözlərinə görə, məktəb binasının yerində stadion tikintisini yerli idarəetmə orqanı həyata keçirir və yararsız tikili demontaj olunacaq.

K.Ömərov əlavə edib ki, Sabirkənd 1 saylı məktəb də qəzalı vəziyyətdə olduğundan onun yerində yeni bina tikiləcək: "Artıq layihə təsdiqlənib və bu il ərzində tikinti işlərinə başlanılacaq. Sabirkənd məktəbinin şagirdləri iki ilə yaxındır Algeti kənd məktəbinin ikinci növbəsində təhsil alırlar".

*Mənbə: report.az*

# İRİNA ABULADZE: FİZİKA, İNCƏSƏNƏT, MUSİQİ VƏ İDMAN MÜƏLLİMLƏRİ ÇATIŞMIR

Son 10 il ərzində fizika, incəsənət, musiqi və idman müəllimlərinin ciddi çatışmamazlığı qeydə alınıb. Bu haqda Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini İrina Abuladze bildirib.

Onun sözlərinə görə, pensiya yaşında olan müəllimlərin peşəsini tərk etməsi müəllim çatışmamazlığı yaratmayacaq, çünki boşalan yerlərlə işləyən müəllimlərin saatlarının doldurulması baş verəcək.

"6 və ya 12 min müəllimin peşəsini tərk etməsi o demək deyil ki, bizə həmin sayda müəllim lazımdır, bu, saatların əlavə edilməsi ilə də mümkündür. Çatışmamazlığa gəldikdə isə, qeyd edim ki, ciddi çatışmamazlıq fizika, incəsənət, musiqi və idman istiqamətindədir. Bu çatışmamazlıq tarixi olaraq yaranıb və son 10 il ərzində mövcuddur", - deyə İrina Abuladze bildirib və qeyd



edib ki, sahələr istiqamətində xüsusi proqramlar qüvvəyə minəcək.

# ŞAGİRD NƏ ZAMAN EV TAPŞIRIĞINDAN STRESSƏ DÜŞÜR? – MÜƏLLİM VƏ VALİDEYNLƏRƏ MƏSLƏHƏTLƏR



Şagirdlərin müstəqil şəkildə yerinə yetirə bilmədikləri tapşırıq verilmiş düzgün tapşırıq deyil. Şagirdlərin bir hissəsi çox və çətin tapşırığı yerinə yetirə bilər, ancaq digər hissəsi üçün bu, dərslərdən sonrakı həyatları üçün gərgin faktora çevrilir. Onların ailəsi, dostları ilə əylənmək və istirahət etmək üçün vaxtları qalmır.

Bəzi şagirdlər gecə saat 10-12-yə qədər ev tapşırıqları ilə məşğul olarlar. 6 saatlıq gərgin məktəb günündən sonra evdə də saatlarla oturmaq və yatana qədər tapşırıq yerinə yetirmək şagird üçün stressli mühit yaradır.

Ev tapşırıqlarının çox olmasına görə uşaqlarda stress halı müşahidə edilirsə və əgər uşaq davamlı şəkildə tapşırıqları yerinə yetirməyi çatdırmırsa, qiymətləri zəifləyirsə bu, müəllimlər üçün bir siqnal olmalıdır ki, vəziyyəti düzəltsinlər. Əmin olun ki, bu zaman yaxşı akademik iştirakının olmasını istəyən şagirdlər üçün böyük narahatçılıq yaranır.

**Hansı növ tapşırıqlar effektivdir?**

Beyin nəyisə təkrar etdikdə daha yaxşı yadda saxlayır. Yəni yaxşı olar ki, şagirdlərə əvvəlki tapşırıqlara yenidən baxış tələb edən tapşırıqlar verilsin.

**Valideyn nə zaman qoşulmalıdır?**

Belə düşüncə var ki, daha çox tapşırıq şagirdə daha yaxşı nəticə verəcək və belə daha yüksək bal toplayacaq, ancaq şagird tapşırığı tam yerinə yetirə bilmirsə əks nəticə alınır.

Əgər hiss etsələr ki, tapşırıq həddindən artıq vaxt tələb edir və uşaqlar sərbəst şəkildə tapşırığı yerinə yetirə bilmir, valideynlər övladlarına tapşırığı həll etməkdə kömək etməlidirlər.

Valideynlər müəllimə şikayət edərsə ki, övladı tapşırığı yerinə yetirə bilmir, onların isə kömək etməyə vaxtları yoxdur, müəllim, güman ki, şagirdin tapşırğını azaldacaq. Bu da uşağın inkişafına mənfi təsir göstərəcək.

# MÜƏLLİMLƏRİN OXUMALI OLDUĞU 17 KİTAB

Şagirdlər həmişə hesab edirlər ki, ən təhsilli onların müəllimidir, müəllim hər şeyi bilir və bütün suallara cavab verə bilər.

Məhz bu, müəllimlərin heç vaxt dayanmaması üçün səbəbdir və onlar daim yeni biliklər əldə etməlidirlər. Maariflənmə baxımından və şagirdin suallarını cavablandırmaq üçün müəllimin daim bədii ədəbiyyat oxuması möhtəşəm haldır.

Bütün müəllimlərə şagirdlərin psixologiyasını daha yaxşı dərk etməkdə və onların sinifdənkənar suallarına uyğun cavab verməkdə kömək edəcək 17 əsəri təqdim edirik:

**Harper Li – "Bülbülü öldürmək";**

**Stiven Kinq – "Kerri";**

**Anna Qavalda – "35 kilo ümid";**

**Coan Ketlinq Roulinq – "Harri Potter" (7 tom);**

**Cerom Devid Selincer – "Çovdarlıqda uçurumdan qoruyan";**

**Lev Tolstoy – "Hərb və sülh";**

**Şarlotta Bronte – "Müəllim";**

**Uilyam Qoldinq – "Milçəklər tanrısı";**

**Çarlz Dikkens – "Devid Kopperfild";**

**Yanuş Korçak – "Uşaqları necə sevmək lazımdır";**

**Daniel Kiz – "Elcernon üçün çiçəklər";**

**Daniel Kiz – "Billi Milliqanın sirli hekayəsi";**



**Eleanor Porter – "Pollianna";**

**Erik Emanuel Şmidt – "Oskar və çəhrayı dama";**

**Yanuş Korçak – "Kral Matiuş Birinci";**

**Şalva Amonaşvili – "Salam, uşaqlar!";**

**Tomas Man – "Buddenbroklar".**

Rubrikanı hazırladı: **Aynurə ƏLİYEVA**

# YAZIQ ANA DİLİM

Məlumdur ki, dilə qarşı məhəbbətin yaranmasında, dilə yaxşı yiyələnməkdə məktəbin, dərsliklərin, kitabların rolu böyükdür. Zaman-zaman Azərbaycan türkcəsiylə qürur duyan ədiblərimiz bu dili yad təsirlərdən qorumağa çalışmışdılar. Təəssüflər olsun ki, zaman-zaman da bu dilə ögey münasibət bəsləyənlər olub və olmaqda da davam edir.

Dilimiz bizim milli birliyimiz və həmrəyliyimizdir. Əgər bu yoxdursa, demək ki, bizim şüurmuz çox kasıbdır. Unutmaq olmaz ki, dilimiz bizim hikmət simvolumuzdur. Nə yazıq ki, biz bunu bəzən anlaya bilmirik, ya da ki, anlamaq istəmirik. Ana dilimiz bizim dayağımızdır, biz onu qorusaq, o da bizi qoruyacaq. Ana dilini ürəkdən sevən Məhəmmədhüseyn Şəhriyar dilimizin şirinliyini, incəliklərini böyük istedadla qələmə alaraq: "Türkün dili tək sevgili, istəkli dil olmaz" deyib. Nədəndir görəsən bu sevgili, istəkli dilə biganə münasibətin yaranması?

Təsadüfi deyil ki "Molla Nəsrəddin" jurnalının birinci sayından başlayaraq: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım. Mən sizinlə açıq ana dilində danışıram, hansı ki, o dildə ananız sizə beşik başında lay-lay deyib..." deyə yazıçı-publisist Mirzə Cəlil öz məqsədini açıq bəyan edirdi.

Sonralar "Molla Nəsrəddin" jurnalının 1917-ci il 24-cü sayında çap olunan Cəlil Məmmədquluzadənin azərbaycançılıq ideyasının bəyannaməsi adlandırılan "Azərbaycan" məqaləsi dilimizə qarşı dolaşıq fikirlərə öz mövqeyini bildirmişdir:

"- Mənim anam kimdir?

Öz özümə cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zəhrəbanu bacı idi.
- Dilim nə dilidir?
- Azərbaycan dilidir."

Ana dilimnən ilk dəfə anamın səsi ilə tanış olmuşam. Mənim kimliyimin əlaməti ana dilimdir. Türk dillərinin Oğuz qrupuna mənsub zəngin, aydın saf və şirin Azərbaycan türkcəsi. Ulu öndər Heydər Əliyev "Dil hər bir millətin milliyyətinin əsasıdır" demişdir.

İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir. Bizim çox gözəl zəngin dilimiz var. Azərbaycan dili şeiriyyat dilidir.

Xətib Təbrizi (XI əsr) ərəb ölkəsində məşhur alim Mərrinin yanında dərs keçmiş, bu vaxt məscidə iki təbrizli daxil olur. Xətib müəllimindən izin alıb həmyerlisi ilə söhbət edir. Müəllimi soruşur:

- Siz hansı dildə danışırdız?
- Azərbaycan dilində, deyə Xətib cavab verir. Müəllim onların danışığını əzbərdən deyir. Bu da bu dilin aydınlığını, təmizliyini sübut edir.

Anadilli ədəbiyyatı sabitləşdirən, Azərbaycan dilini



dövlət dili səviyyəsinə qaldıran Ş.İ.Xətai bir şair kimi Azərbaycan xalqının mənəviyyatının zənginləşməsində mühüm rol oynayıb. Onun dövründə Azərbaycan türkcəsində danışmaq, yazıb-yaratmaq bir ənənəyə çevrildi. Xətaişünaslar deyir ki, Ş.İ.Xətai anadilli poeziyanın başında durmaqla böyük bir tarixi dünəndən bu günə ötürə bilib. Bəs biz necə, bu dili sabaha ötürə biləcəyikmi?..

***Sevil Dəmirçiyeva***
*Baydar ictimai məktəbinin dərs hissə müdiri,*
*Azərbaycan dili və ədəbiyyatı müəllimi*

## 300-Ə QƏDƏR EV QUŞU OLANLARA HANSI ÖHDƏLİKLƏR QOYULUR?!

Milli Qida Agentliyi qeyri-mütəşəkkil qida və heyvan yeminin istehsalı qaydasını təsdiqləyib.

Qeyd olunan sərəncam ərzaq/heyvan yemi, yaxud ilkin məhsulun bütün istehsalçılarına, sadalananlardan birinə sahib olan və ya istehsal edən ailələrə aiddir:

a) Ən azı 300 ev quşu və ondan alınan ət, yaxud yumurta;

b) Ən azı 10 arı pətəyi və ondan əldə olunan bal;

c) Ən azı 30 baş dovşan və ondan əldə olunan ət.

Belə ki, Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya əsasən, dəyişikliklərə identifikasiya edilmiş – qeydiyyatdan keçmiş iribuynuzlu mal-qaranın sayı 5 başdan artıq deyilsə, identifikasiya edilmiş – qeydiyyatdan keçmiş xırdabuynuzlu mal-qaranın sayı 15 başdan artıq deyilsə ondan alınan süd və süd məhsulları da tabedir. Həmçinin dəyişikliklər ən azı 2 hektar kənd təsərrüfatına aid torpaq sahəsi və orada yetişdirilən ərzaq, yaxud heyvan yeminə də aiddir.

Sərəncama əsasən, əgər ailənin istehsal subyekti yuxarıda qeyd olunan meyarları qane edirsə, onun öhdəliyidir:

- Milli Qida Agentliyində (Sonradan – Agentlik) qeydiyyatdan keçsin;
- Agentliyin epizootik hallara qarşı, qarşısını alma, ləğvetmə və identifikasiya – qeydiyyat tədbirlərinin həyata keçirilməsi üçün bildirdiyi qeydləri icra etsin;
- Heyvan xəstəliklərinə qarşı diaqnostik, qarşısını alma və aradan qaldırma tədbirləri və heyvanların identifikasiya – qeydiyyatı tədbirlərinin həyata keçirilməsi zamanı müvafiq səlahiyyətli orqanlarla əməkdaşlıq etsin;
- Heyvanların (ev heyvanları da daxil olmaqla) rifahını təmin etsin;
- Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya əsasən heyvanların daşınmasının və satışının qayğısına qalsın;
- Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya əsasən heyvan mənşəli qeyri-ərzaq məhsullarının istifadəyə verilməsini təmin etsin;
- Yoluxucu xəstəliklərin, eləcə də heyvanların kütləvi zəhərlənməsi halları haqqında dərhal Agentliyə məlumat versin;
- Bitkinin sağlamlığına təhlükə yaradan zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınması üçün Agentliyin qeydlərini icra etsin;
- Qarantinə səbəb olan zərərli orqanizmlərin aşkarlanması, yaxud onlar haqqında şübhə olan halda dərhal Agentliyə bildirsin;

Qeyd etmək lazımdır ki, ailə istehsalı olan subyektin qeydiyyatını Agentlik həyata keçirir.

Ailə istehsalı subyektinin qeydiyyatı, qeydiyyatın yenilənməsi və göstəricilərin vahid bazasının yaradılması üçün Gürcüstan qanunvericiliyi ilə təyin edilən tələbləri qorumaqla Agentliyin Dövlət Xidmət İnkişaf Agentliyindən və başqa müvafiq müəssisələrdən fiziki şəxsin identifikasiya göstəricilərini əldə etmək səlahiyyəti var.

Qeydiyyat zamanı Agentlik ailə istehsalı subyektinə qeydiyyat nömrəsi verir və bu, fiziki şəxsin şəxsi nömrəsidir.

Qeyd etmək lazımdır ki, bu qaydanın tələblərini pozan şəxsin məsuliyyəti Gürcüstan qanunvericiliyinə əsasən müəyyən ediləcək.

Sərəncamı Gürcüstanın baş naziri Giorgi Qaxaria imzalayıb.

*Mənbə: bm.ge*

## QRİP VƏ SOYUQDƏYMƏNİ BİR-BİRİNDƏN FƏRQLƏNDİRƏN 6 ƏLAMƏT

Qış bir qayda olaraq viruslarla "yüklü olur" və bu viruslar kəskin respirator xəstəlikləri (tənəffüslə əlaqəsi olan) yaradır. Viruslar arasında aqressiv olanları var – bunlar qrip viruslarıdır. Ancaq qeyri-mütəxəssislər üçün bəzən kəskin respirator xəstəliklərin – qrip və soyuqdəymənin bir-birindən fərqləndirilməsi çox çətin olur. Fərq isə prinsipialdır: soyuqdəymənin bağışladığını qrip bağışlamır!

Doğrudur, adi insanlar üçün qrip və soyuqdəymə bir-birinə bənzəyir və oxşar simptomları var, amma həkimlər üçün onlar tam fərqli xəstəliklərdir və müxtəlif müalicə üsulu tələb edir. Ona görə də, vaxtında həkimə müraciət etmək lazımdır. Bununla yanaşı, qriplə soyuqdəyməni bir-birindən fərqləndirməyi özümüz də bacarmalıyıq. Keçək bu iki xəstəliyi bir-birindən ayıran əlamətlərə:

1. Qrip həmişə qəflətən başlayır. Bir qayda olaraq, xəstəliyin dəqiq hücum vaxtı və saatını da qeyd etmək mümkündür. Kəskin respirator xəslətiklər simptomların tədricən təzahürü ilə xarakterizə olunur (zökəm, boğaz ağrısı).

2. Qripin ilkin əlamətləri baş, gözlər, əzələ ağrıları, üşütmə, baş hərlənməsi, tərləmə, bədəndə ağrılar və hərarətin ciddi artmasıdır (39 dərəcə və daha çox). Soyuqdəymə isə burun tutulması və boğaz ağrısı ilə başlayır. Hərarət nadir hallarda 38,5 dərəcədən artıq olur.

3. Asqırmaq – soyuqdəymənin əlamətidir ki, bir qayda olaraq qrip zamanı heç vaxt olmur. Öskürəklə bağlı eynisini deyə bilmərik. Soyuqdəymə zamanı öskürək xəstəliyin əvvəlində yaranır. O, quru və orta dərəcədə olur. Qrip zamanı isə öskürək ikinci ya üçüncü gün başlayır (onunla yanaşı zökəm və boğaz ağrısı yaranır). Qrip öskürəyi çox güclü və yorucudur, çox hallarda sinə nahiyəsində ağrılar olur və bu, qrip virusunun traxeyanın selikli qişasında "məskunlaşmasından" yaranır.

4. Qrip zamanı intoksikasiya ciddi şəkildə özünü göstərir, yəni bədənin zərərli maddələrlə zəhərlənməsi virus və qoruyucu hüceyrələrin dağılması nəticəsində üzərə çıxır.

5. Klassik qrip daha çətin davam edir, nəinki kəskin respirator xəstəliklər və çox vaxt pnevmoniya, ürək, qan-damar sisteminə və əsəb sisteminə zərər verməsi kimi çətinlikləri var.

6. Soyuqdəymə halında bir həftə evdə olmaqla, yaxud yataq rejimindən sonra adi ritmdə həyata asan qayıtmaq olur, evdən çıxmaq və işləməyə davam etmək mümkün olsa da bu, tövsiyyə olunmur. Qrip halında isə reabilitasiya prosesi ola bilsin bütün ay ərzində davam edə: baş hərlənməsi, təzyiqin dəyişməsi, iştahasızlıq, gözlərin öz-özünə yumulması kimi hallar qalır. Bu "astenik sindromdur" – güclərin dəyişməsi. Bu zaman yataq rejimini qorumaq vacibdir, çünki ola bilsin "xəstəlik" geri qayıda bilər.

*Mənbə: intermedia.ge*

***Gürcü dilindən tərcümə: A. Əliyeva***

# HƏYATA +1-LƏ BAŞLAMAQ

Daun sindromu bir çox səbəblərdən insanların daim maraq mərkəzində olmuş genetik mutasiyanın təzahürüdür. Bəzi hallarda, istər sindiromun həqiqi simasının anlaşılmamasından, istər insanların şüurlu, istehzalı alaylarından çirkin görüntülər yarana bilir. Təəssüf ki, dəfələrlə insanların bir-birlərini təhqir etdiklərində "daunlu" kəlməsinin istifadə edildiyinin şahidi olmuşam. Bunu hər duyduqda necə də acımasız bir dünyada yaşadığımızın gerçəkliyini hiss edirəm. Bu tip iyrənc istehzalarla demək istədikləri dırnaqarası məna "əqli cəhətdən şikəst"dir.

Bəs daun sindromu nədir? Bu suala qısa olaraq cavab verməzdən öncə, yazını yazma səbəblərimdən biri olan yaşadığım kiçik bir hadisəni qeyd etmək istəyirəm.

(Türkiyə, Bursa, Uludağ Universiteti, Tibb fakültəsi xəstəxanası, Ürək, qan-damar cərahiyyəsi şöbəsi, 2017-ci il.) Həmin gün də hər sabah eyni saatda paralel olaraq bir neçə pasientin əməliyyatı planlaşdırılmışdır. Əməliyyatxananın dəhlizinə girdiyimdə tibb bacısı 1 nömrəli əməliyyatxanada 8 aylıq uşaq var dedi, sözünü bitirməmiş həyacanla içəri daxil oldum, tibbi praktikamda ilk dəfə idi bir uşaq əməliyyatı görəcəkdim. Tək düşüncəm professordan bu əməliyyatda ona asistentlik etməyimi istəmək idi. Ancaq bu dəfə hər zaman alışqan olduğum kimi, bütün bədəni steril parçalarla örtülmüş, sadəcə döş qəfəsinin açıq olduğu pasient deyil, dünyalar şirini və simasından təbəssümü əskik olmayan birini gördüm. Vərdiş etdiyim kimi üzünü görmədiyim bir pasient gözləyərkən, masada açıq şəkildə təbəssümü ilə buz kimi olan əməliyyatxananı, insanın içini isidən, yam-yaşıl gözləri ilə üzümə baxan daun sindromlu biri vardı. Bir az əvvəl yaşadığım həyacanın yerini çox fərqli və insanın içini isidən duyğular aldı. Qəribə bir sevgi ilə masaya yaxınlaşdım, əllərinə toxunaraq özümü unudub "Əzizim, sən xəstələndinmi?!" dedim. Anestezioloq köməkçisi gülərək "Bəli, həm də çox", deyə cavab verdi.

- Problem nədir?!
- Mitral qapaq çatışmazlığı.
- Əməliyyat nə zaman başlayacaq?!
- Bu gün olmayacaq.
- Niyə, bir problemmi var?!
- Bəli, anesteziyanı dayandırdıq, xəstənin hərarəti yüksəldi, infeksionist əməliyyata bir müddətlik icazə vermədi.
- Bəs niyə incidirsiz?! (sərt bir şəkildə pinsetlə qolundan, baldırından tuturdu).
- Anesteziyanın təsirinin keçib-keçmədiyini yoxlayıram.
- Aydındır, amma bu qədər incitmək zorunda deyilsiz.
- Xəstə mənim deyilmi, istədiyimi edə bilərəm.
- Xeyir, mən gəlməzdən əvvəl belə idi, indi o mənimdir.
- Yaxşı, həkim xanım, sadəcə sizi əsəbləşdirmək istəyirdim.

Bu an tamamilə sentimental reaksiya vermişdim. Sonradan üzr istəyərək, onu masadan alıb əməliyyatxanadan çıxarmaq istədiyimi bildirdim. Professorun söylədiklərinə cavab olaraq, "bəli, bilirəm, xəstələrimizlə xüsusi münasibət qurmamalıyıq" dedim. Ancaq bu ilk və son dəfə olacaqdı. Sonunda razılaşdıq. Onu qucağıma aldığım o anı həyatım boyu unutmayacağımı bilməzdim. İçimdə sanki onun mənə aid olduğunu hiss edirdim, əməliyyatxananın önündə valideynlərini gördüyüm vaxta qədər. Ağlamaqdan gözləri qızarmış ana və ona təsəlli verməyə çalışan bir ata. Bir qorxu ilə: hər şey yolundadırmı?! soruşarkən gözlərindəki qorxulu həyəcanı görməmək mümkün deyildi. Həmin saniyə özümü toplayaraq professordan öncə ciddi bir problemin olmadığını söylədim. Və o gözəl gözlü, nur simalı mələyi anasına verərək ordan uzaqlaşdım. Düşündüm, özümə dedim, onu bir daha görməyəcəksən. Üzünü görməsəm də, sağlamlıq vəziyyətini hər gün öyrənirdim. Üç gün sonra əməliyyat uğurla tamamlandı. Təcrübəmin son günü hər kəslə sağollaşarkən professordan uşağın son vəziyyətini soruşdum. Hər şeyin yolunda olduğunu, bir neçə günə evə buraxılacağını və onu görüb-görmədiyimi soruşdu. Mən isə, yox dedim. "Yaxşı, istəyirsən anasının nömrəsini alaq, bəlkə bir gün zəng vurarsan", - buna da "yox, istəmirəm" deyərək hər şey üçün təşəkkür etdim və çıxacağım anda belə bir cümlə ilə sağollaşdıq: "Bax, qızım, sənə bir həkim olaraq deyil, bir insan olaraq deyirəm, müvəffəqiyyətli bir həkim olduğunda ki, bundan əminəm, içindəki bu sevgini və mərhəməti heç vaxt itirmə!" Üzümdə təbəssümlə ordan ayrıldım. Və həmin gündən o balaca Məhməti heç unutmadım. Bu kiçik yazını ona və onun kimilərinə həsr edirəm. Hamımızı ətrafımızdakı bu və bu kimi insanlara qarşı daha qayğıkeş olmağa çağırıram.

Daun sindromunu ilk dəfə 1866-cı ildə ingilis həkim Lanqdan Daun bir qız uşağında müşahidə etmişdir və bunu öz məqaləsində "Monqolizm" adı ilə qeydə almışdır. Tək insanlarda deyil, həmçinin çox sıx hallarda heyvanlarda da bu sindroma rast gəlinir. Sindromun xromosom anomaliyası ilə bağlı ola biləcəyi fikrini ilk dəfə 1930-cu ildə Vaardenburq və Bleyer irəli sürmüşdür, ancaq bunu təsdiqləmək 1959-cu ildə təcrübələrini bir-birindən xəbərsiz olaraq davam etdirən iki ayrı genetik – Jerom Lejen və Patrisiya Ceykobsa nəsib olmuşdur. Bu araşdırmalar nəticəsində 21-ci xromosomların 2 ədəd ola biləcəyi halda, 3 ədəd olması məlum olmuşdur. Sindromun növləri olan translokasiyanın və mozaikin ortaya çıxması üçün 3 il daha sərf edilmişdir. Sindroma 1970-ci ildən etibarən asiyalı alimlər tərəfindən bu sindromu kəşf edən həkimin adı verilmişdir.

Down Syndrome International kimi təşkilatlar 2006-cı ildən etibarən Ümumdünya Daun Sindromu Günü üçün müxtəlif tədbirlər təşkil edirlər. BMT-nin qərarı ilə 10 noyabr 2011-ci ildən etibarən 21 mart Dünya Daun Sindromu Günü elan olundu və 2012-ci ildən rəsmi olaraq hər il qeyd olunmağa başlandı. Bu önəmli gün, sindromun yaranma səbəbi olan 21-ci xromosomun 3 ədəd olması ilə 21 mart olaraq əlaqələndirilmişdir. Daun sindromu genetik bir fərqlilik, xromosom anomaliyasıdır. Yəni insan hüceyrəsində xromosom sayı 46 ikən, daun sindromlu şəxsdə 21-ci xromosomun 3 ədəd olması nəticəsində 47 xromosomun olmasıdır. Sindromun ən böyük səbəbi hamiləlik yaşıdır, 35 yaşdan yuxarı hamiləlikdə sindrom riski artmaqdadır. Bu, ananın yumurta hüceyrəsinin fizioloji qocalması ilə bağlıdır. Atanın yaşı bu zaman heç bir rol oynamır, çünki kişilərdə spermatozoid həddi-büluğa çatdıqdan sonra yaranır, qızlarda isə yumurta hüceyrəsinin bünövrəsi ana bətnində qoyulur. Ona görə daun sindromlu körpənin doğulması ananın yaşı ilə birbaşa bağlıdır. Ancaq ümumi olaraq götürsək, gənc qadınlar daha çox uşaq sahibi olduğundan, daun sindromlu uşaqların 75-80%-i gənc anaların uşaqlarıdır. Suni mayalanma yolu ilə dünyaya gələn uşaqlarda genetik pozğunluqların və daun sindromu olma riski çox yüksəkdir. Sindromu yaradan səbəblərdən biri də tərkibində purin alkoloidləri – kofein, teobromin, teofilin olan maddələrin çox qəbul edilməsidir. Uşağın ana bətnindəykən 11-14-cü həftələrdə sindromun diaqnozunun qoyulması üçün ikili, üçlü, dördlü testlər və ənsə qalınlığını ölçmə kimi metodlardan istifadə olunur. Qanunlara əsasən, ata və ananın qərarı ilə hamiləlik 24 həftəliyə qədər dayandırıla bilər. Orta hesabla hər 800 doğumdan 1-ində qeydə alınır və bütün dünyda təqribən 6 milyona yaxın daun sindromlu şəxs yaşayır. Tibb dünyasındakı yeniliklər və gəlişmələr sayəsində daun sindromlu şəxsin ömrü 40-50 yaşdır, əvvələr bu göstəricilər 16-18 yaş arası idi. Bu sindromun bəzi fiziki fərqlilikləri var: uzunsov kiçik gözlər, göz yarığının çəpliyi, göz bucağının büküşlüyü, ağzı yarım açıq olması, böyük dil, yastı burun, qısa barmaqlar, qıvrım sərçə barmaqları, köp qarın, seyrək dişlər, qalın ənsə, ovuc içlərində tək xətt, ayaq baş barmaqlarının digər barmaqlardan daha açıq olması, həmyaşıdlarından daha yavaş böyümə və daha qısa boylarının olması. Eyni zamanda bu görünüşün hamısı və ya bir neçəsi ola bilər. Bu uşaqların bir-birlərinə oxşama səbəbi eyni stereotiplərinin olmasıdır. Monqoloid irqinə



mənsub şəxslərə bənzədikləri üçün "monqolizm" adı da bu səbəbdən işlədilib. Skeletin normal inkişafı pozulduğu üçün belə körpələr oturmağı və yeriməyi gec öyrənir, ən əsası isə əzələlər və oynaqlar zəif inkişaf etmiş olur, bu səbəbdən ayaqlar və əllər tez-tez masaj olunmalıdır. Beyinin ümumi inkişafdan qalması və beyinciyin zəif inkişaf etməsi əqli cəhətdən geriliyə, eləcə də hərəkətin normal koordinasiyasının pozulmasına gətirib çıxarır. İmmun sistemləri zəif olduğundan infeksion və digər xəstəliklərə (xüsusi ilə bədxasəli şişlərə) tutulma riskləri yüksəkdir. Eşitmə, görmə, yuxu pozğunluğu, tiroid, autizm, tez yaşda altsheimer problemləri riskiləri də həmçinin yüksəkdir, müalicə üsulu ilə bu problemləri aradan qaldırmaq mümkündür. Metabolizmlərinin yavaş olması səbəbi ilə, düzgün bəslənmə alışqanlığı edilmədiyi halda bəlli bir yaşda kilo problemi yarana bilər. Kişilərdə döllənmə sual altındadır, qadınlarda isə sağlam insanla ailə qurduqda dünyaya sağlam uşaq gətirmə şansları yüksəkdir.

Sindromun 3 növü var: 1-Trisomiya 21(meyotik ayrılma-ma) - daun sindromlularının 90-95%-ni təşkil edir. Bu növdə əlavədən bir ədəd 21-ci xromosom yumurta və ya sperma hüceyrəsindən gəlməklə və ya döllənmənin ilk aşamalarında bir nöqtədə düzgün olmayan bölünmə səbəbiylə yeni hüceyrələr 3-lü ədəd xromosom ilə cəmdə 47 xromosom olaraq formalaşır.

2-Translokasiya (yerdəyişmə) – daun sindromlularının 3-5%-ni təşkil edir. Bu növ zamanı 21-ci xromosomun bir parçası qoparaq başqa bir xromosoma (məsələn, 14-cü xromosom kimi) yapışaraq əmələ gəlir. Say olaraq 46 xromosoma sahib olmağına baxmayaraq, genetik məlumat olaraq 47 xromosom məlumatına sahib olur.

3-Mozaik (mitotik ayrılmama) - daun sindromlularının 2-5%-ni təşkil edir. Bu növdə bəzi hüceyrələr 46 xromosom daşıyarkən, bəziləri 47 xromosom daşımaqdadır. Düzgün bölünməmə döllənmənin irəli aşamalarında reallaşdığında bir xətt 46 xromosom, digər xətt isə 47 xromosom olaraq davam edir və mozaik bir təməl yaradır. Mozaik daun sindromlu şəxslərdə əqli cəhətdən gerilik digərlərinə nisbətən daha yüngül formadadır. Normal insanlarda IQ səviyyəsi 100-ün üstündə götürülərkən, daun sindromlu şəxslərdə IQ səviyyəsi 50-dir. Bu növdə isə digərlərinə nisbətən IQ səviyyəsi 30% daha yüksəkdir. Digər növlərində olduğu kimi, mozaik daun sindromunun da müalicəsi yoxdur. Ancaq bu növ sindromlu şəxslərin fiziki və zehni qabiliyyətləri digərlərinə nisbətən daha çox inkişaf etdiyi üçün, alacaqları təlim-tərbiyə və təhsillə daha effektiv bir nəticə əldə etmək olar. Buna misal olaraq dünyada bir çox daun sindromlu elm insanlarını götərmək olar. Daun sindromlu bir professor öz müsahibəsində "bunu necə bacardınız?" sualına "anam heç vaxt ümidini itirmədi" deyərək cavablandırmışdır.

***Aytac Həsənova***

*Həkim-kardioloq (Ordinator)*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR 2020-Cİ İL №001 (105)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## İBRAHİMXƏLİLİN "YETİMDOYDURAN" ŞEİRLƏR KİTABI NƏŞR EDİLİB




İbrahimxəlilin "Yetimdoyduran" adlı yeni şeirlər kitabı Tbilisinin "Saqa" nəşriyyatı tərəfindən bu günlərdə nəşr olunmuşdur. Kitaba müəllifin yeni yazıları, "Durna diasporu" silsiləsindən otuz beş şeiri və yenidən işlədiyi "İbrahim" rapsodiyası daxil edilmişdir.

Mənəvi saflıq motivləri, şairin daxili dünya eniş-yoxuşları, inanmaq və sevmək qabarma-çəkilmələri, əbədiyyətə tənhalıq təmasları, hər an səmimi duyğular dövründə var olmaq istəyi-həsrəti kitabda vaqifanə xətt olaraq keçir.

Kitab Gürcüstan Yazıçılar Birliyinin tərkibində fəaliyyət göstərən Azərbaycan bölməsinin nəşridir.

Rəyçiləri Vaqif Bayatlı, Allahverdi Təhləli və Zahid Sarıtorpaq olan "Yetimdoyduran"ın kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacağına ümid edirik.




## STADİONDA SİQARET ÇƏKƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR



2020-ci ilin 1 yanvarından stadionlarda siqaret çəkmək qadağan edilib. Tütünə nəzarətlə bağlı qanuna əsasən, qaydaya administrasiyası olan bütün stadion və idman müəssisələri əməl etməli olacaq. Onlara stadiona qadağa nişanlarının yerləşdirilməsi və pərəstişkarların məlumatlandırılması öhdəliyi qoyulub. Siqaret çəkənlər üçün xüsusi yerlər ayıra bilərlər.

Qayda pozuntusu halında administrasiya birinci dəfə 500 lari cərimələnəcək, təkrarlanan halda 1000 lari, üçüncü və daha sonrakı hallarda isə cərimə 2000 laridən artıq olacaq.

Qeyd edək ki, 2020-ci ilin 1 yanvarına qədər mehmanxana otaqlarının ən azı 20%-də, həmçinin stadion ərazisinin 50%-də tütün çəkməyə icazə verilirdi və bu qayda artıq öz qüvvəsini itirəcək.

*Mənbə: bpn.ge*

## YANVARDAN MAVİ YANACAĞIN YENİ İSTİFADƏÇİLƏRİ 400 LARİ ƏVƏZİNƏ 800 LARİ ÖDƏMƏLİ OLACAQLAR

Paytaxt Tbilisi də daxil olmaqla Rustavi, Batumi, Kutaisi və Potidə mavi qaz şəbəkəsinə yeni qoşulan abonentlər 400 lari əvəzinə 800 lari ödəməli olacaqlar.

Gürcüstanın Elektrik Enerjisi və Su Təchizatı komissiyası müvafiq qərarı 2019-cu ilin 27 dekabrında verib və qərar cari ilin yanvar ayından qüvvəyə minib.

Qeyd edək ki, kanalizasiya sisteminin qoşulması 1500 lari, elektrik enerjisinin qoşulması isə 400 lari olaraq qalır. Ancaq, məlumata əsasən, bu standart qiymətdir və əgər boruların diametri standarta uyğun deyilsə, yaxud məsafə uzaq olarsa məbləğ də arta bilər.

Ümumilikdə ən azı 2700 lari lazımdır ki, ev su, qaz və elektrik enerjisi ilə təmin olunsun.

## GÜRCÜSTANDA MÖVCUD OLAN AVTOMOBİLLƏRİN STATİSTİKASI

Gürcüstanda 1,32 milyon avtomobil var. Yalnız 2018-ci ildə ölkədə qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinin sayı 64 min artıb. Nəqliyyat vasitələrinin ən böyük hissəsi – 36,5%-i Tbilisidə qeydiyyat olunub, qalan hissəsi isə bölgələrin payına düşür. Avtomobillərin sayına görə İmereti 13%-lə ikinci yerdə, Kvemo Kartli isə 10%-lə üçüncü yerdədir.

Daxili İşlər Nazirliyinin hesabatına görə, avtomobillərin 95%-i 2012-ci ilə qədər istehsal olunmuş avtomobillərdir. Statistikaya əsasən, ölkədə ən çox yayılmış avtomobil "Opel Astra"dır. Gürcüstanda 56 mindən çox "Opel Astra" var.

Gürcüstanda ən çox yayılmış yüngül avtomobillərin sayı aşağıdakı kimidir:

**1) Opel Astra - 56,302;**
**2) Mercedes Benz E Class - 51,532;**
**3) Mercedes Benz C Class - 43,641;**
**4) Opel Vecrta - 39,923;**
**5) Toyota Prius - 28,639;**
**6) Volkswagen Golf - 24,997;**
**7) BMW 3 Series - 24,510;**
**8) BMW 5 Series - 24,003;**
**9) Mitsubishi Pajero/IO/Montero - 21,334;**
**10) Honda Fit/Jazz - 19,791;**

2018-ci ildə Gürcüstanda **Toyota Prius** avtomobillərinin sayı sürətli templə artmağa başladı – **13 236** ədəd idxal edildi.

*Mənbə: bm.ge*

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.